

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 238 (21.899)

15 dekabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhedin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığımızın bundan sonra da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu qeyd edilib.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin yaxşı tarixə malik olduğunu və Böyük Britaniyanın Azərbaycanın ən böyük xarici investoru olduğunu vurğulayan Prezident İlham Əliyev BP şirkətinin Azərbaycanın qlobal enerji layihələrində əsas tərəfdaşı olmasının önəmini qeyd edib. Eyni zamanda, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görüldüyünü deyən dövlətimizin başçısı gələcəkdə qeyri-energetika sahəsində də Böyük Britaniya şirkətlərinin həm investor, həm də podratçı kimi iştirakının genişlənməsində ölkəmizin maraqlı olduğunu bildirib.

Görüşdə energetika sahəsində əməkdaşlığın perspektivləri ətrafında məsələlərə toxunularaq "Şahdəniz-2" layihəsinin uğurlu icrasının və "Azəri-Çıraq-Günəşli" müqaviləsinin uzadılmasının əhəmiyyəti vurğulanıb.

# Naxçıvanda akademik Həsən Əliyevin 110 illik yubileyi qeyd olunub





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il fevralın 7-də "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq olunmuşdur.

Tədbirlər Planına uyğun olaraq dekabrın 14-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında akademik Həsən Əliyevin 110 illik yubileyi qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yubiley tədbirində çıxış edərək demişdir: 2017-ci il dekabr ayının 15-də akademik Həsən Əliyevin anadan olmasının 110 illiyi tamam olur. Akademik Həsən Əliyev təbiətşünas və coğrafiyaçı, torpaqşünas və ekoloq kimi həm Azərbaycanda, həm də dünya miqyasında tanınmışdır. Onun elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, təbii ehtiyatların qorunması və səmərəli istifadəsinə həsr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 7 fevral tarixli Sərəncamında da qeyd olunduğu kimi: ***"Azərbaycan coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri uğurla həyata keçirmişdir".***

Ali Məclisin Sədri demişdir: Akademik Həsən Əliyev ölkəmizdə torpaqşünaslıq və tətbiqi ekologiya elmlərinin əsasını qoymuş, onun rəhbərliyi ilə Azərbaycanın qiymətli sərvəti olan torpaq fondu ilk dəfə pasportlaşdırılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutunun yaranması və inkişafında, çoxsaylı milli elmi kadrların yetişməsində də akademik Həsən Əliyevin misilsiz xidmətləri olmuşdur. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və mühafizəsinin təşkili böyük alimin elmi və ictimai fəaliyyətinin əsaslarını təşkil edirdi. Onun elmi fəaliyyəti nə qədər çoxsahəlidirsə, bir o qədər bütöv və tamdır. Buna görədir ki, coğrafiyaçılar onu coğrafiyaşünas, ümumi əkinçilik və torpaq nəzəriyyəsi ilə məşğul olanlar torpaqşünas, ətraf mühit mütəxəssisləri isə ekoloq adlandırırdılar. Bir sözlə, akademik Həsən Əliyevin apardığı elmi tədqiqatlar nümunə gücündə olmuş, ümumdünya miqyasında mühüm elmi nailiyyətlər kimi təsdiq və qəbul edilmişdir.

Qeyd olunmuşdur ki, Vətənə, onun torpağına, suyuna və təbiətinə dərindən bağlı insan kimi torpağın mühafizəsi məsələləri həmişə akademik Həsən Əliyevi düşündürmüşdür. "İnsan üçün torpaqdan kənar təbiət anlayışı yoxdur", – deyən alim torpağın münbit qatının eroziyaya uğrayaraq dağıdıldığına, müxtəlif maddələrlə çirkləndirildiyinə, məhsuldar torpaqların üzərində tikinti-inşaat işlərinin aparılmasına təəssüfləndiyini bildirərək bütün cəmiyyəti torpağın qayğısına qalmağa çağırırdı. Bu sahədə apardığı səmərəli elmi fəaliyyətin nəticəsidir ki, onun təşəbbüsü ilə torpaq kadastrı, torpaqların qiymətləndirilməsi kimi elm sahələrinin Azərbaycanda təməli qoyulmuş və inkişaf etdirilmişdir. Akademik Həsən Əliyev ömrünün sonuna qədər Azərbaycanın ekoloji problemləri, meşələrin və meşə torpaqlarının elmi tədqiqi və mühafizəsi sahəsində kompleks tədqiqatlar aparmış, Azərbaycanın müxtəlif ərazilərində ayrı-ayrı ağac cinslərinin yayılması qanunauyğunluqlarını işləyib hazırlamışdır. İnsanın sistemsiz təsərrüfat fəaliyyəti nəticəsində dağ və düzən meşələrin sıradan çıxması, ayrı-ayrı qiymətli ağac növlərinin tükənmək təhlükəsi onu narahat edirdi. 1976-cı ildə qələmə aldığı "Həyəcan təbili" kitabında Azərbaycan əhalisini, ziyalıları, gəncləri ətraf mühitin, torpağın, bitki örtüyünün sıradan çıxmasının qarşısını almağa, məhv olmaq təhlükəsi altında qalan bitki və heyvan növlərinin, suyun, atmosferin mühafizəsinə səsləyir və deyirdi ki: "Təbiətə münasibətdə yubanmaq çox yaşamağa yubanmaqdır".

Ali Məclisin Sədri bildirmişdir ki, bu, hələ ötən əsrdə insanları gözləyən qlobal ekoloji və iqlim dəyişikliklərinə yol verməmək, həyat və insan yaşayışı naminə ətraf aləmi qorumaq barədə böyük bəşəri düşüncə sahibinin gələcək nəsillərə ziyalı çağırışı və müraciəti idi. Görkəmli Azərbaycan alimi təbiətə dağıdıcı təsirin bəşəriyyət üçün təhlükəli olacağına diqqəti çəkərək təbiətə və təbii ehtiyatlara baxışın dəyişdirilməsi, geniş mənada maarifçiliyə böyük ehtiyac olduğunu əsaslandırır, "təbiəti duymaq, dinləmək, onun keşiyində durmağı bacarmaq psixologiyasını böyüyən nəslə aşılamaq ən yaxşı təbiət dərsidir" – deyirdi. Akademik Həsən Əliyevin xalqımız qarşısında xidmətlərindən biri də Azərbaycanda dövlət qoruq və yasaqlıqlarının yaradılmasıdır. Onun təşəbbüsünün nəticəsi olaraq yaradılan dövlət qoruq və yasaqlıqları hesabına Azərbaycanın nadir bitki və heyvanlar aləmi qorunub saxlanmışdır.

Ali Məclisin Sədri demişdir ki, akademik Həsən Əliyevin təbiətin mühafizəsi, ondan səmərəli istifadə edilməsi sahəsində apardığı tədqiqatların və gördüyü işlərin miqyası böyükdür. 60 il elmi yaradıcılıqla məşğul olan akademik 800-dən çox elmi məqalə və monoqrafiya, 140-a yaxın müxtəlif təyinatlı xəritə, eləcə də xeyli sayda elmi-kütləvi nəşrlər hazırlamış, özündən sonra zəngin irs qoymuşdur. Akademik Həsən Əliyevin zəhmətinin məhsulu olan bu irs bu gün əhalinin ekoloji maariflənməsi üçün əhəmiyyətli rola malik olan qiymətli xəzinədir. Qədim Şərq müdrikləri deyirdilər: "Əsl alim odur ki, özündən sonra işi və əməlləri qalsın". Akademik Həsən Əliyev belə alimlərdən və müdrik zəka sahiblərindən idi. Vətənə və xalqa təmənnasız xidmətləri ilə elm tariximizdə əbədi iz buraxmış bu böyük şəxsiyyətin həyatı və yaradıcılığı "əsl alim necə olmalıdır" sualının ən yaxşı nümunəsi, gələcək nəsillər üçün əsl tərbiyə məktəbidir.

Diqqətə çatdırılmışdır ki, akademik Həsən Əliyev Naxçıvan Muxtar Respublikasının da zəngin təbiətini tədqiq etmiş, təbiətin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı dəyərli tövsiyə və təkliflər vermişdir. Bu gün görkəmli alimin Naxçıvan Muxtar Respublikasının ekoloji mühiti, zəngin təbiətinin qorunması ilə bağlı arzuları reallığa çevrilib. Naxçıvanda yaşıllıq zolaqları, meyvə bağları salınır, qədim meyvə sortları bərpa edilərək əkin dövriyyəsinə qatılır. Bir vaxtlar muxtar respublikada yaşıl örtük sahəsi ümumi ərazinin bir faizini keçmirdisə, hazırda bu göstərici 14 faizdən çoxdur.

Azərbaycan elminə dəyərli töhfələr vermiş görkəmli alim, bacarıqlı elm təşkilatçısı və tanınmış ictimai xadim Həsən Əliyevin xidmətləri layiqincə qiymətləndirilmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin tapşırığı və himayəsi ilə 2003-cü il iyunun 16-da Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı yaradılmış, 2009-cu ildə Milli Parkın ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılmışdır. Muxtar respublikanın ən böyük müəssisələrindən olan "Araz" Elm-İstehsalat Birliyi akademik Həsən Əliyevin adını daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən görkəmli alimin 110 illik yubileyi ilə bağlı muxtar respublikada müxtəlif tədbirlər, elmi konfranslar keçirilmiş, gənclərin və tələbələrin Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiyaları təşkil edilmiş, Naxçıvan şəhərindəki Həsən Əliyev adına küçə yenidən qurulmuşdur.

Ali Məclisin Sədri demişdir: Akademik Həsən Əliyevin xidmətləri öz dövründə olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlamaqdadır. Ümummilli liderimiz Heydər Əliyevin də qeyd etdiyi kimi: ***"Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən əsas vəzifələrdəndir...".***

Ardı 2-ci səhifədə

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov çıxış edərək demişdir ki, Ali Məclis Sədrinin Sərəncamı ilə təsdiq edilmiş “Akademik Həsən Əliyevin 110 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”na uyğun olaraq muxtar respublikada Həsən Əliyevin həyat və yaradıcılığı haqqında tematik materiallar hazırlanmış, akademikin adını daşıyan Zəngəzur Milli Parkı ərazisinə turizm marşrutları təşkil edilmiş, “Həsən Əliyev-110” mövzusunda elmi konfrans və maarifləndirici tədbirlər keçirilmişdir.

Qeyd olunmuşdur ki, alimin arzu etdiyi ekoloji tədbirlər bu gün Naxçıvan Muxtar Respublikası ərazisində uğurla həyata keçirilməkdədir. Muxtar respublikanın ümumi ərazisinin 28 faizə qədərini xüsusi mühafizə olunan təbiət əraziləri – milli park, qoruq və yasaqlıq təşkil edir ki, bu da ətraf mühitin mühafizəsi sahəsində qəbul edilmiş ən yüksək göstəricilərdəndir. Görülən işlər nəticəsində meşə ehtiyatlarımız və yaşıllıqların sahəsi dəfələrlə artmışdır. Təkcə 2017-ci ildə muxtar respublika ərazisində 550 hektar sahədə yeni yaşıllıqlar salınmış, doğma diyarımızın meyvəçilik şöhrəti özünə qaytarılmışdır. Akademik Həsən Əliyev Naxçıvanda yerli meyvə sortlarının inkişaf etdirilməsi, qoz, badam və süfrə üzümü yetişdirilməsinin həm iqtisadi əhəmiyyətini və eyni zamanda bu meyvə bağlarının kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaqlarda əkilməsini əsaslandırırdı. Muxtar respublika ərazisində bu il 50 hektar münbitliyi az olan torpaqlarda yeni meyvə bağları, 20 hektar sahədə süfrə üzümü, 16 hektar sahədə badam bağı və dağlıq ərazilərdə qoz bağları salınmışdır. Muxtar respublikamızda meyvəçiliyin inkişafına xüsusi diqqət göstərilməsinin nəticəsidir ki, son illər aparılan yaşıllaşdırma tədbirlərində meyvə tinglərinin xüsusi çəkisi 70 faizdən yuxarı olmuşdur. Təbiəti mühafizə və elmi tədqiqat sahəsində yeni ədəbiyyatların, o cümlədən flora və faunaya dair iki cilddən ibarət “Qırmızı kitab”ın və digər ədəbiyyatların çap edilməsi akademik Həsən Əliyevin elmi yaradıcılığının bu gün də davam etdirilməsini göstərir. Hafiz Yaqubov Naxçıvanda akademik Həsən Əliyevin irsinə verilən yüksək qiymətə, ətraf mühitin mühafizəsi və zənginləşdirilməsinə göstərilən diqqət və qayğıya görə muxtar respublika ekoloqları və təbiətsevərləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Tədbirin aparıcıları akademik Həsən Əliyevin həyat və fəaliyyəti haqqında məlumat vermiş, onun “Həyəcan təbili” əsərindən parçalar oxunmuşdur.

Sonra akademik Həsən Əliyevlə bağlı Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Torpağa, Vətənə bağlı ömür” adlı sənədli televiziya filminə baxış olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunda ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir



Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə baş konsulluğun kollektivi, bu şəhərdə yaşayan, çalışan və təhsil alan həmvətənlərimiz ulu öndərin Qarsın mərkəzində yerləşən Heydər Əliyev Parkındakı heykəli önünə gül-çiçək düzüb, xalqımızın xilaskar oğlunun əziz xatirəsini ehtiramla yad ediblər.

Baş konsulluqda davam edən mərasimdə ümummilli liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Baş konsul Nuru Quliyev ulu öndər Heydər Əliyevin yarım əsrə yaxın dövrü əhatə edən siyasi fəaliyyətinin ayrı-ayrı istiqamətlərindən bəhs edib. Qeyd olunub ki, dahi rəhbərin siyasi xətti ölkəmizi tərəqqiyə qovuşdurub, əhalinin sosial rifah halının yüksəldilməsinə səbəb olub. Bu gün Azərbaycan Respublikası ulu öndərin müəyyənləşdirdiyi yolla gedərək daha da inkişaf edir, beynəlxalq aləmdə öz nüfuzunu artırır. Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında ulu öndərin xidmətlərindən danışan Baş konsul deyib ki, bu gün iki qardaş ölkə arasında sarsılmaz dostluq və tərəfdaşlıq münasibətləri mövcuddur.

Sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub, ehsan süfrəsi açılıb.

**“Şərq qapısı”**

## Təbrizdə ulu öndər Heydər Əliyevin xatirəsi yad edilmişdir

***Dekabrın 10-da Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.***



Mərasimdə ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, ruhuna dualar oxunmuşdur.

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov tədbirdə çıxış edərək demişdir ki, ulu öndər Heydər Əliyevin ömür yolu Azərbaycan tarixində mühüm mərhələ təşkil edir. Baş konsul bildirmişdir ki, ulu öndər ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycanın gələcək müstəqilliyinin əsaslarını yaratmış, ölkəmizə rəhbərliyinin ikinci dövründə isə müstəqilliyimizi qoruyub saxlamış, xalqın birliyini təmin etmiş, ölkəni anarxiya və xaosdan xilas edərək qüdrətli Azərbaycan dövlətini yaratmış, qonşu dövlətlərlə dostluq münasibətlərinin əsasını qoymuşdur. Bu gün ulu öndər Heydər Əliyev ideyalarının həyata keçirilməsi Azərbaycanı sürətli sosial-iqtisadi inkişafa və sabitliyə qovuşdurmuşdur.

Baş konsul ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan-İran əlaqələrinin əsasının qoyulduğunu bildirmiş, ölkələrimiz arasındakı münasibətlərdən danışmışdır.

Sonra mərasimdə ehsan süfrəsi açılmışdır.

Anım mərasimində İran İslam Respublikası Şərqi Azərbaycan Vilayətinin Baş Mədəniyyət və İslami İrşad İdarəsinin baş direktoru Məhəmməd Məhəmmədpur, İranın Xarici İşlər Nazirliyinin Şimal-Qərbi nümayəndəliyinin rəhbəri İsmayıl Rağeb Babayi, Təbriz Şəhər İcra Hakimiyyəti başçısının müavini Səid Bərzigər, Şərqi Azərbaycan Vilayətinin dövlət rəsmiləri, Türkiyənin Təbrizdəki Baş konsulu, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**“Şərq qapısı”**

*Müasirləşən kəndlərimiz*

## Dövlət qayğısının müasir yaşayış məntəqəsinə çevirdiyi yurd yerimiz:




Bütün fəsillərdə gözəl olan doğma yurdumuza bu payız fəslinin son günlərində qar yağdı – qışın gəlişindən soraq verdi. Yaşlılar:

– Öz yerinə-öz yurduna yağır, – dedilər. Belə günlərin birində Ordubad rayonunun Üstüpü kəndinə gedirəm. Füsunkar təbiəti, özünəməxsus gözəllikləri olan bu yaşayış məntəqəsi rayon mərkəzindən 40 kilometr məsafədə yerləşir. Paytaxt şəhərimizdən yola düşərkən Naxçıvan-Ordubad magistralının Düylün kəndi ərazisindən sola ayrılan yolu gözlərimin önünə gətirirəm. Bir neçə gün əvvəl Naxçıvan televiziyasında Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolunun açılışı barədə göstərilən süjetə baxmışam. Müasir standartlara cavab verən 20 kilometrlik yol 4 yaşayış məntəqəsi sakinlərinin böyük sevincinə səbəb olub, nəqliyyat vasitələrinin intensiv hərəkətini təmin edib. Yol genişləndirilərək asfalt örtük salınıb, üzərində su keçidləri qoyulub, istinad divarı tikilib, körpülər əsaslı təmir edilib, sahilbərkitmə işləri aparılıb.

Bu kəndlərin həm də turizm üçün əlverişli olduğunu nəzərə alsaq, yeni yolun böyük əhəmiyyət daşıdığını görərik. Artıq Düylün və Çənnəb kəndlərini keçmişik. Qarşıda Üstüpü kəndidir. Bu yaşayış məntəqəsinin adının etimologiyası ilə bağlı oxuduqlarımı xatırlamağa çalışıram.

Tədqiqatçıların yazdığına görə, “Üstüpü” toponimi hələ Səfəvilər dövründən məlumdur. Bəzilərinə görə, kəndin adı Üstüpir olub. Toponimçi K.N.Smirnovun fikrincə isə bu ad astana, kandar mənasındadır. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun gəldiyi qənaət isə belədir ki, “Üstüpü” toponimi kəndin yerləşdiyi ərazinin relyef quruluşu ilə bağlıdır. Belə güman olunur ki, kəndin yuxarı hissəsi Belgili, Xokəlin təpələri və Ulus dağı ilə əhatələndiyi üçün yerli əhali həmin təpələrin sayına uyğun olaraq bura “Üçtəpə” adı verib və zaman keçdikcə fonetik dəyişmələr nəticəsində bu ad “Üstüpü” şəklinə düşüb.

Müasirliyə qovuşmuş bu qədim yurd yeri indi sevinc içərisindədir. Bunun səbəbi isə noyabr ayının 21-də burada bir neçə yeni obyektin istifadəyə verilməsidir. Bununla da kəndin görkəmi tamamilə dəyişib, müasirliyə qovuşub.

Kənddə ilk olaraq üz tuturuq yeni məktəb binasına. Müasir tələblər səviyyəsində inşa edilmiş 340 yerlik məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Məktəbin müəllimi, Yeni Azərbaycan Partiyası Üstüpü kənd ərazi ilk təşkilatının sədri Ramazan Gözəlov üstüpülülərə göstərilən dövlət qayğısını yüksək dəyərləndirərək həmyerliləri adından minnətdarlığını bildirir. Məktəbin digər bir müəllimi Dunay Nəcəfov da söhbətə qoşulub deyir ki, artıq 19 kompüterdən istifadə etmək imkanı qazanmışıq. Kompüterlərin hamısı internetə qoşulub. Müəllimlər onu da bildirdilər ki, ötən il məktəbin məzunlarından dördü ali, ikisi orta ixtisas məktəblərinə qəbul olunublar. Yaradılan şərait, vəzifə və vətəndaşlıq borcu qarşıdakı illərdə daha böyük uğurlar tələb edir və buna da nail olacaqlarına əmindirlər.

Təhsil ocağında məktəbəhazırlıq sinfinin şagirdi Bəkir Nəcəfli ilə ayaqüstü söhbət edirik. Beşyaşlı bu uşağın yüzə yaxın şeir bilməsi diqqətimizi çəkir. Bəkirdən bir şeir söyləməsini istəyirik.

*Sinəsində qurulubdu təmtəraq,*
*Gördüklərim, duyğularım haqdır, haqq.*
*Məni yaman sehrləyib bu torpaq –*
*Mən öz doğma Vətənimə vurğunam.*

Kollektivlə söhbət zamanı bir məqamı dərk etdik ki, müəllimlər onlarla görüşdə Ali Məclis Sədrinin tövsiyəsini fəaliyyət proqramı kimi qəbul ediblər: ***“... Üstüpü kənd tam orta məktəbi üçün də müasir tədris şəraiti yaradılıb. Bütün bunlar imkan verəcəkdir ki, məktəbi bitirən gənclər ölkəmizdə və dünyanın qabaqcıl universitetlərində ali təhsillərini davam etdirə bilsinlər. Müasir tədris imkanlarına malik məktəb binalarının istifadəyə verilməsi, müəllim tələbkarlığı və şagird çalışqanlığı təhsildə uğur qazanmağın başlıca şərtləridir. Kollektiv yaradılan şəraitdən istifadə edərək nailiyyətləri daha da artırmalı, məktəbdə gələcəyimizin təminatçıları olan əsl vətəndaşlar yetişdirilməlidir”.***

Həmin gün istifadəyə verilən həkim ambulatoriyasının baş həkim əvəzi Zərifə Babayeva ilə yeni səhiyyə müəssisəsində həmsöhbət oluruq. Deyir ki, ambulatoriyada müasir tibbi avadanlıqlar qoyulub.

Üstüpüdə kompleks quruculuq tədbirləri çərçivəsində inşa olunmuş kənd və xidmət mərkəzləri üstüpülülərə göstərilən daha bir qayğının ifadəsidir. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Təbriz Quliyev yeni obyektlər barədə məlumat verərək bildirir ki, kənd mərkəzi üçmərtəbəlidir. Burada kənddə fəaliyyət göstərən dövlət qurumları üçün müasir iş şəraiti yaradılıb. Kənd mərkəzində rabitə evi, polis sahə məntəqəsi, kitabxana, baytarlıq məntəqəsi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, statistika otağı və 74 yerlik zal və kitabxana yerləşir.

Yaradılan belə şərait üstüpülüləri doğma torpağa daha sıx tellərlə bağlayıb. Onlar təsərrüfatın müxtəlif sahələrini inkişaf etdirirlər. Burada dağlıq ərazilər üçün spesifik olan maldarlıq, heyvandarlıq, arıçılıq, meyvəçilik və tərəvəzçilik insanların məşğulluğunu təmin edib.

Kənd ağsaqqalı Vaqif Əkbərov üstüpülülərin zəhmətdən qorxmadıqlarını deyir:

– Kəndimizdə tarixən kartofçuluğa, tərəvəzçiliyə üstünlük verilib. Bu təsərrüfat sahələrində zəngin təcrübə qazanılıb. Tədricən digər təsərrüfat sahələri də inkişaf etdirilir. İndi elə bir kənd adamı tapa bilməzsən ki, o, təsərrüfatın bir neçə sahəsi ilə məşğul olmasın. Bunun üçün hərtərəfli imkanlar var. Münbit torpaq, təmiz su və hava, başlıcası isə hərtərəfli dövlət qayğısı. Belə qayğının ifadəsidir ki, torpaq mülkiyyətçiləri dövlətdən güzəştli kreditlər götürür, onlar gübrələrlə təchiz olunurlar. Texnika sarıdan da heç bir narazılıq yoxdur.

El ağsaqqalı deyir ki, kənddə müasir həyat şəraitinin yaradılması ölkəmizin iqtisadi qüdrətinin günü-gündən artmasının ifadəsidir. Bu isə kənd adamlarını qurub-yaratmağa daha da ruhlandırıb.

*Qarlı bir gündə Üstüpüdə qaynar həyatın yaşandığını gördük. Gördüklərimiz isə qəlbimizdə qürur hissi yaratdı. Doğma torpağına qəlbən bağlı olan insanların sevincini biz də yaşadıq. Bu sevincin uzun ömürlü olacağını isə üstüpülülərin söhbətlərindən bir daha duyduq.*

**Muxtar MƏMMƏDOV**

*Yaxın günlərdə Naxçıvan şəhərindəki Əziz Əliyev prospektində yeni qurulan yerüstü piyada keçidinin yanındakı dayanacaqda avtobus gözləyərkən müşahidə etdiyim mənzərə məni bu haqda yazmağa vadar etdi. Yolun digər tərəfində bazar və ticarət mərkəzi olduğundan bu istiqamətdə hərəkət edən avtomobillərin və piyadaların sayı çoxluq təşkil edir. Elə bu səbəbdən qanun keşikçiləri yol hərəkət qaydalarına riayət etməyən piyadaların təhlükəsizliyi məqsədilə onlara keçiddən istifadə etmək lazım olduğunu bildirirlər. Lakin, nədənsə, onların bəziləri nə özləri, nə də sürücülər üçün yaratdıqları təhlükəni dərk etmirlər. Hər kəsin isə dilində bir bəhanə var: tələsirəm. Kimisi işə tələsir, kimisi evə, kimisi həkimə... Ancaq düşünmürlər ki, keçidlərdən istifadə etmədikləri halda, yetişmək lazım olduqları yerə yox, ölümə tələsirlər.*

# Yol hərəkəti qaydalarına riayət etmək hər kəsin borcudur





Nəqliyyat vasitələrinin və piyadaların hərəkətini tənzimləmək və təhlükəsizliyini təmin etmək üçün yollarda işıqforlar quraşdırılır, keçidlər inşa olunur. Lakin piyadaların bir çoxunun işıqfora və keçidlərə əhəmiyyət vermədiyini görürük. Nə üçün bu qaydanı polislər məcburən həyata keçirməlidirlər? Axı polis yollarda dayanıb hər kəsə piyada zolağından istifadə etməyi və işıqfordankeçmə qaydasını öyrədə bilməz. Şəhərimizdə kifayət qədər piyada keçidlərinin olmasına baxmayaraq, piyadaların əksəriyyətinin onlardan istifadə etməmələrinin səbəbi nədir? Piyadalar üçün kifayət qədər maarifləndirici tədbirlərin aparılmamasımı, yoxsa cəmiyyətimizdə hələ də piyada mədəniyyətinin formalaşmamasımı? Tanıdığım bir neçə piyada ilə bu barədə söhbət zamanı belə məlum oldu ki, insanların keçidlərdən istifadə edib-etməməsi təhlükəsizliklə bağlı maarifləndirmənin yetərli olmamasıdır.

Həmin ünvanda görüşdüyüm piyada Ziyəddin Tağıyevin fikrincə, bəzi insanların yerüstü keçidlərdən istifadə etməmələrinin səbəblərindən biri müəyyən sayda pilləkənləri qalxıb-enməyin onlar üçün zaman itkisindən ibarət olduğunu düşünmələridir. Ancaq nəzərə alsaq ki, etdiyimiz qanun pozuntusunun qarşılığında müəyyən qədər cərimə oluna bilərik, bəlkə də, o zaman keçidlərdən istifadə etməyə bu qədər biganə yanaşmarıq. Keçiddən istifadə etməyənlər öz təhlükəsizliklərinin qeydinə qalmamaqla yanaşı, sürücülərin də həyatlarını təhlükə altına atmış olurlar. Ziyəddin müəllim düşünür ki, hər şeydən əvvəl, piyada keçidlərindən istifadəni bir vərdişə çevirmək lazımdır. Birmənalı olaraq insanlar anlamalıdırlar ki, yol hərəkəti qaydaları yalnız cərimələnmək üçün yaranmayıb. Bu qanunlar insanların təhlükəsiz yaşaması üçün yazılıb. Qanunu pozanlar isə cəzalandırılmalıdırlar ki, təhlükə yaradan hallara yol verilməsin.

Digər müsahibimiz Ədalət Ziyadov da bu haqda ürəyidolu vətəndaşlarımızdan biridir. O, başına gələn əhvalatı bizimlə bölüşür: "Yayda Bakıya getmişdim. Səhərçağı səhhətimlə bağlı xəstəxanaya getməli oldum. Tələsirdim deyə, keçiddə vaxt itirməmək üçün qadağan olunmuş ərazidən keçməyə çalışdım. O zaman həmin ərazidə xidmətdə olan polis işçisi məni saxladı və xəbərdarlıq etdi ki, əgər bir də bu hal təkrarlanarsa, cərimə yazılacaq. O gündən daha diqqətli olmağa çalışıram. Gedəcəyim yerə nə qədər geciksəm də, piyada keçidlərindən istifadə edirəm. Lakin sözügedən problemi yalnız cərimə tətbiq etməklə aradan qaldırmaq mümkün deyil. Onlar piyada keçidindən cərimədən yayınmaq üçün deyil, öz təhlükəsizlikləri üçün istifadə etməli olduqlarını anlamalıdırlar. Bunun üçün maarifləndirmə işləri aparılmalıdır. Belə maarifləndirmə isə ilk olaraq uşaq bağçalarından, məktəblərdən başlanılmalıdır. Hər kəs kiçik yaşından dərk etməlidir ki, istər özünün, istərsə də başqalarının həyatını təhlükəyə atmamaq üçün piyadalar yol hərəkət qaydalarını pozmamalıdırlar. Bundan əlavə, insanları bu barədə maarifləndirmək üçün sosial çarxlar çəkilib telekanallar vasitəsilə nümayiş də oluna bilər.

Digər müsahibimiz Naxçıvan Dövlət Universitetinin tələbəsi Aytac Dilqəmovanın fikrincə isə yol hərəkət qaydalarını pozan piyadaları qanuna uyğunlaşdırmağın ən yaxşı yolu cərimələrdir. Aytac düşünür ki, tətbiq olunan cərimələr piyadaların xeyrinədir. Çünki keçiddən istifadə edilmədiyi halda, həm özləri, həm də sürücülər üçün təhlükə yaradırlar. Onun fikrincə, baş verən qəzanın qarşısını almaq üçün keçidlərdən istifadə ən optimal variantdır: Bu gün şəhərimizdə piyadaların hərəkətini tənzimləmək istər onların, istərsə də sürücülərin təhlükəsizliyini təmin etmək üçün müxtəlif tədbirlər həyata keçirilir. İnsanların təhlükəsizliyi məqsədilə keçidlərin qurulması həmin tədbirlərin əyani sübutudur. Məncə, insanların təhlükəsizliyinin bu qədər düşünüldüyü, onlara sonsuz qayğı göstərildiyi halda, bəzilərinin özlərinin və başqalarının da həyatını təhlükə altına atması məsuliyyətsizlik və biganəlikdən başqa bir şey deyil. Fikrimcə, keçidlərdən istifadə etməyən piyadaları intizama dəvət etməyin ən yaxşı yolu elə cərimələrdir.

Bu kimi problemlərdən çıxış yolunun yalnız cərimələrlə deyil, maarifləndirici tədbirlərlə də həyata keçirilməsinə üstünlük verənlər var. Naxçıvan şəhər sakini Nəzakət Haqverdiyeva deyir ki, yol-nəqliyyat hadisələrinin yaranmasında piyadaların rolu az deyil. Düşünürəm ki, əksər hallarda piyadalar özləri qəzaya şərait yaradırlar. Onların əksəriyyəti piyada keçidlərindən istifadə etməkdə maraqlı deyil. Son illər şəhərimizdə piyada keçidləri inşa olunaraq əhalinin istifadəsinə verilib. Onların funksiyası yol hərəkətini tənzimləmək, piyadaların təhlükəsizliyini təmin etməkdir. Amma, təəssüf ki, əhali keçidlərdən kütləvi şəkildə istifadə etmir. Həmin piyadaların məsuliyyətsizliyi isə sürücüləri də çətin vəziyyətdə qoyur. Bu məsələdə günah piyadalarda olsa da, onların məsuliyyətsizliyindən yaranan qəza faktlarında bir çox hallarda sürücülər təqsirkar hesab edilir. Bu da, fikrimcə, düzgün deyil. Odur ki, bu kimi halların qarşısını almağın ən yaxşı üsulu insanları maarifləndirməkdir. Hər şeydən əvvəl, bu barədə küçələrdə, yollarda müxtəlif maarifləndirici plakatlar, afişalara yer ayrılsa, düşünürəm ki, daha səmərəli nəticə əldə olunar. Bu işdə polis əməkdaşlarının kütləvi informasiya vasitələri ilə birgə fəaliyyət göstərməsi məqsədəuyğundur. Çünki media ictimaiyyəti maarifləndirməkdə, ictimai fikrin formalaşmasında əvəzsiz rol oynayır. Bu haqda davamlı olaraq müxtəlif sosial çarxlar, reklamlar, müxtəlif layihələrin hazırlanıb efirə verilməsi, mətbuatda maarifləndirici yazıların dərc olunması əhəmiyyətli nəticə verə bilər.

Həmin ərazidə xidməti vəzifəsini yerinə yetirən Naxçıvan Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşı Nazim Orucov söhbət zamanı bildirdi ki, piyadaların qayda pozuntusunun qarşısını almaq üçün ilk olaraq piyada mədəniyyəti formalaşdırılmalıdır. Bu işdə yol polisi ilə yanaşı, valideynlərin, müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Biz onsuz da yol polisi olaraq vəzifəmizi hadisələrin sayını azaltmağa yönəltmişik. Təhlükənin baş verməməsi üçün əməkdaşlarla birlikdə xidmət aparır, strateji əhəmiyyətə malik ünvanlar üzrə təhlükəsizliyin tam təmin edilməsi üçün öz vəzifəmizi həyata keçiririk. Ancaq yol polisi hər yerdə insanları xoşagəlməz hadisələrdən qoruya bilməz. Elə yerlər var ki, nə işıqfor var, nə də polis. Bu, o demək deyil ki, orada hökmən yol-nəqliyyat hadisəsi baş verməlidir. Yaşımızdan, tutduğumuz mövqeyimizdən asılı olmayaraq, yol hərəkəti qaydalarını öyrənməli və yerinə yetirməliyik. Hər birimiz yol hərəkəti haqqında qanunu və bu qanundan irəli gələn tələbləri bilməliyik.

Müsahibimiz deyir ki, insanlar istədikləri yerdə yolu keçməyin mümkünlüyünü düşünürlər. Bəzi piyadalar vəzifələri haqqında çox səhv məlumatlara malikdirlər. Həmin məlumatlara əsasən də hərəkət edirlər. Məsələn, deyirlər ki, piyada ayağını yola atdısa, sürücü harada olmasından asılı olmayaraq, saxlayıb yol verməlidir. Qanunların təbliği zəif aparıldığı üçün belə problemlər ortaya çıxır. "Yol hərəkəti haqqında" Qanunun 40-cı maddəsində piyadaların vəzifələri sadalanır. Piyadaya deyilir ki, piyada keçidinə daxil olmazdan əvvəl sağa-sola baxmalı, yaxınlaşmaqda olan nəqliyyat vasitəsinin olub-olmamasına fikir verməli, onun təxmini sürət həddini nəzərə almalıdır. Düşünməlidir ki, həyatı hər seydən qiymətlidir.

Müsahibimizin fikrincə, nəqliyyat hadisələrinin baş verməsinə əsas səbəb sürücü səhlənkarlığı və piyada diqqətsizliyidir. O deyir ki, baş verən qəzaların 98 faizi yol hərəkəti qaydalarının pozulmasından yaranır. Amma inanıram ki, bu istiqamətdə təbliğatın davam etdirilməsi yol hərəkəti mədəniyyətinin formalaşmasına öz təsirini göstərəcək.

Nazim Orucov onu da bildirdi ki, qarşıdan gələn qış mövsümündə bu məsələ daha da aktuallaşıb. Nəqliyyatın intensiv hərəkətinin təmin olunması üçün müəyyən qabaqlayıcı tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Əgər sürücülər və piyadalar üzərlərinə düşən vəzifələri yerinə yetirsələr onlar həyatlarını sığortalamış olarlar.

✍ **Gülcamal TAHİROVA**

*Turizm*

# Sosial-iqtisadi inkişafın katalizatoru



***İnsanların səyahət etmək istəyi qədim dövrlərdən məlumdur. Bu istək zaman keçdikcə daha da artmış və müasir dövrdə fenomenal bir sahəyə çevrilərək hər kəsin marağını cəlb etmişdir. Çünki fərqli ölkə və regionları, xalqları və mədəniyyətləri əyani öyrənməyin ən münasib yolu turizmdən keçir. Turizm, eyni zamanda ölkələri bir-birinə yaxınlaşdırır, beynəlxalq əlaqələri möhkəmləndirir, iqtisadi və mədəni bağları inkişaf etdirir. Bundan əlavə, turizm yeganə prosesdir ki, onun məhsulunun ixracını bütün ölkələr arzu edir.***

Gəliri olmayan iqtisadiyyatda kütləvi turizmdən söhbət gedə bilməz. Buna görədir ki, işsizlik əmsalının çox olduğu, əməkhaqqı az olan ölkələrdə turizmin inkişafı mümkün deyil. Çünki turizm ən çox xidmətlər toplusunu əhatə edir. Xidmət sahələrinin inkişafı isə yalnız kiçik biznesin üzərində qurulur. Biznesin bu növü çoxşaxəlidir, eyni zamanda ölkə iqtisadiyyatının əsas sütunu sayılır. Bu gün dünyanın iqtisadi baxımdan ən güclü ölkələrində büdcə vəsaitlərinin təminatında ən mühüm yeri kiçik biznesin gəlirləri tutur. Məsələn, Almaniya kimi inkişaf etmiş bir ölkədə ümumi daxili məhsulun 3-5 faizi böyük şirkətlərə aiddir. Geridə qalan yüz milyardlarla dollar məhsul istehsalı və xidmətlər məhz kiçik müəssisələrin payına düşür. Turizmin inkişafında kiçik biznesin rolunu ona görə qabardırıq ki, bu biznes turizmin bu gününə və gələcəyinə, sözün həqiqi mənasında, nəzarət edir. Uzağa getməyək, bu gün muxtar respublikamıza istənilən bir ölkədən turist gəlirsə, həmin turistin burada istifadə etdiyi bütün xidmət sahələrinin başında kiçik biznesin təmsilçiləri dayanır. Dünyada elə bir nümunə yoxdur ki, hər hansı böyük şirkət bütün bu xidmətləri ödəmək imkanında olsun. Bu, fiziki baxımdan da mümkün deyil. Buradan isə belə nəticə çıxarmaq olar ki, kiçik biznes inkişaf edirsə, turizm də inkişaf edəcək. Bəs turizmin inkişafı sosial-iqtisadi vəziyyətə necə təsir göstərir?

Qeyd edək ki, turizm beynəlxalq iqtisadi münasibətlərdə mühüm rol oynayır. Çünki beynəlxalq turizm ölkələri bir-birinə yaxınlaşdırır, beynəlxalq əlaqələri möhkəmləndirir, iqtisadi və mədəni əlaqələrin inkişafına təkan verir, ölkələrarası iqtisadi inteqrasiya yaradır, valyutanın, işçi qüvvəsinin və kapitalın sərbəst hərəkətinə zəmin yaradır.

Hamımıza məlumdur ki, turizm siyasi baxımdan sabitliyin tam təmin edildiyi ölkələrdə daha çox uğur qazanır. Digər tərəfdən isə turizmin özü iqtisadi sabitliyin yaradılmasına imkan verir. Çünki turizmdən gələn gəlir əhalinin müxtəlif təbəqələri arasında ədalətlə – görülən işin müqabilində paylanılır. Bundan əlavə, turizm yeni iş yerlərinin yaradılmasına stimul verir. Buradan isə o nəticəyə gəlmək olur ki, turizm dövlət büdcəsinin formalaşmasında, ticarət balansının sabitləşməsində əhəmiyyətli rol oynayır.

Turizmin mənfəəti təkcə iqtisadi tərəfləri ilə ölçülmür. Turistlərin gediş-gəlişi nəticəsində xalqlar arasında münasibətlər daha da dərinləşir, insanlar arasında etibar yaranır. Mövcud problemlər, konfliktlər daha real və əyani şəkildə dərk olunur. Yəni beynəlxalq turizm ekspertlərinin dili ilə desək, turizm sosial-iqtisadi inkişafın katalizatoru rolunu oynayır.

Son illərdə muxtar respublikamızda turizm infrastrukturunun yaradılması ilə bağlı görülən işlər dövlətimizin bu sahənin inkişafını diqqət mərkəzində saxlamasının nəticəsidir. Bu gün artıq Naxçıvana təkcə region ölkələrindən deyil, dünyanın müxtəlif bölgələrindən turistlər gəlirlər. Sevindirici haldır ki, muxtar respublikamıza gələn turistlərin sayı ildən-ilə daha da artır. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin açıqladığı məlumatda qeyd olunur ki, 2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikaya 338 min 715 turist gəlib. Bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz və ya 10 min 502 nəfər çoxdur. Maraqlı məqamlardan biri budur ki, statistikaya görə, bəhs olunan dövrdə turist sayının faizlə artımı sənaye, kənd təsərrüfatı, ümumi daxili məhsul və sair sahələrdən daha çoxdur. Diqqət edilməli məqamlardan biri də budur ki, muxtar respublikaya gələn illik turist sayının muxtar respublika əhalisinin sayına çatmasına az qalıb. Qeyd edək ki, 1 oktyabr 2017-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3889 nəfər artaraq 451 min 929 nəfər təşkil edib. Bu isə o deməkdir ki, Naxçıvan artıq turistlərin diqqət mərkəzindədir və bu maraq getdikcə artır. Digər tərəfdən isə turizmin inkişafı muxtar respublikanın sabit, iqtisadi baxımdan inkişaf edən bir bölgə olduğunun göstəricisidir.

✍ **Səbuhi HƏSƏNOV**

# Elmi-praktik konfrans keçirilib

***Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında "Pediatriyanın aktual problemləri" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva tədbiri açaraq gələcəyimiz olan uşaqların muxtar respublikamızda qayğı ilə əhatə olunduğunu vurğulayıb.

Nazirliyin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı İbrahim Ağayev cari ildə uşaq əhalisinə göstərilən tibbi xidmətin vəziyyəti barədə məlumat verib. Uşaqların icbari dispanserizasiyası, elektron sağlamlıq kartlarının verilməsi, məktəbyaşlı uşaqlarda ixtisas həkimləri tərəfindən dərindən tibbi müayinələrin aparılması, həkim briqadalarının ucqar dağ kəndlərində uşaqları müayinə etmələri və digər sağlamlıq tədbirləri daim diqqət mərkəzindədir.

Qeyd olunub ki, bu ilin 10 ayında 4 min 775 uşaq doğulub, onlara lazım olan peyvəndlər vaxtında vurulub, 3 min 671 elektron sağlamlıq kartı verilib, pediatrların bilik və bacarıqlarının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-neonatoloqu Aysel Baxşıyeva, Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim-pediatrı İlvin Rzayev müxtəlif mövzularda çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Standartlara uyğun olmayan elektrik və qaz cihazları gömrük sərhəd-buraxılış məntəqələrində saxlanılır

***Muxtar respublikamızda əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsinə, infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyətinin təmin olunmasına xüsusi diqqət yetirilir. Hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələrdə bu məsələlərin həlli yolları müəyyənləşdirilir və qarşıya qoyulmuş vəzifələr aidiyyəti qurumlar tərəfindən icra edilir.***

Avqust ayının 26-da keçirilmiş analoji müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinə verilmiş tapşırıqlar standarta uyğun olmayan qızdırıcı elektrik və qaz cihazlarının, sənaye üsulu ilə hazırlanmayan digər texniki avadanlıqların muxtar respublikaya gətirilməsinə və istismarına yol verilməməsindən, eləcə də bu barədə istehlakçıların və sahibkarların əvvəlcədən məlumatlandırılmasından ibarətdir.

Nəzərə almaq lazımdır ki, keyfiyyətin beynəlxalq qaydalar əsasında təmin edilməsi, ilk növbədə, məhsulların sertifikatlaşdırılmasını tələb edir. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar məcburi sertifikasiyadan keçməlidir. Uyğunluğu təsdiq edən sertifikat olmadıqda həmin malları Azərbaycan Respublikasında satmaq və istifadə etmək qadağandır. Müvafiq səlahiyyətli orqan, yəni Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatı belə malların ölkə ərazisinə idxal edilməsinə gömrük orqanları tərəfindən icazə verilməsi üçün əsasdır.

Standartlara uyğunluğu müvafiq dövlət orqanı tərəfindən təsdiqlənməmiş qızdırıcı elektrik və qaz cihazlarının idxalına icazə verilməməsi məhz istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin tərkib hissəsidir. Çünki qanunvericilik uyğunluq sertifikatı təqdim olunmadan təhlükəsizliyi təmin edilməli olan malların gömrük buraxılış məntəqələrindən keçirilməsinə yol vermir. Bununla bağlı sərhəd-keçid məntəqələrində vətəndaşlara yazılı, şifahi və elektron qaydada xəbərdarlıqlar olunur, xaricdən qaz sobası gətirmək istəyən hüquqi və fiziki şəxslərə qanunvericiliyin tələbləri izah edilir. Uyğunluq sertifikatı olmadan idxal edilən qızdırıcı elektrik və qaz cihazları sərhəd-keçid məntəqələrində saxlanılır.

Ayrı-ayrı vətəndaşlar tərəfindən şəxsi istifadə üçün gətirilən qaz cihazlarının, o cümlədən sobaların təhlükəsizlik sistemi isə aidiyyəti dövlət qurumunun əməkdaşları tərəfindən yerindəcə yoxlanılır və müsbət rəy verildikdən sonra buraxılışına icazə verilir.

Nəzərə almaq lazımdır ki, gömrük orqanları insanların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi malların standartlara uyğunluğunu, təhlükəsizliyini vizual şəkildə müəyyənləşdirə bilməz. Bunun üçün aidiyyəti dövlət orqanı tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatı olmalıdır.

Xaricdən uyğunluq sertifikatı olmadan gətirilən və standartlara uyğunluğuna dair müsbət rəy verilməyən qaz sobalarının gömrük orqanları tərəfindən saxlanılması vətəndaşlara dəyə biləcək maddi və mənəvi ziyanın qarşısının alınmasına xidmət edir. Əhalinin böyük əksəriyyətinin kəndlərdə yaşadığını, muxtar respublikada məskunlaşma səviyyəsinin ilbəil artdığını nəzərə alsaq, əlbəttə ki, fərdi yaşayış evlərində, xüsusən də qazla işləyən cihazların rolu və əhəmiyyəti danılmazdır. Çünki mavi yanacaq nə qədər sərfəli və rahat olsa da, təhlükəsizlik təmin edilmədikdə bədbəxt hadisələr qaçılmazdır.

Yeri gəlmişkən, qeyd edək ki, standarta uyğun sobalarda dəm qazının miqdarı həyat üçün təhlükəli olanda qazın sobaya girişini avtomatik olaraq dayandıran xüsusi qurğu olur. Üstəlik, hər hansı bir səbəbdən qaz nəqli dayandıqda ehtimal olunan təhlükələrin qarşısının alınması üçün sobalar avtomatik qaz kranı, yeni qaz requlyatoru ilə təchiz edilir. Sınaq yoxlamalarının nəticələri göstərir ki, ayrı-ayrı vətəndaşlar tərəfindən xaricdəki mağazalardan alınıb gətirilən sobaların heç də hamısı standartlara cavab vermir. Xarici uyğunluq sertifikatı olan qaz sobalarında bir çox hallarda müəyyən edilir ki, maya dəyərinin aşağı salınması və ya hər hansı başqa bir səbəbdən onların üzərində bu qurğular olmur və ya sonradan açılıb çıxarılır. Məhz son üç ay ərzində fiziki şəxslər tərəfindən gətirilmiş 99 sobanın 42-nin standartlara uyğun olmamasının müəyyən edilməsi və buraxılışına icazə verilməməsi bu sahədəki vəziyyəti əks etdirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar xaricdən gətirilən, o cümlədən satışa çıxarılan qızdırıcı elektrik və qaz cihazlarının milli sertifikatlaşmaya uyğunluğuna nəzarətin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Fövqəladə Hallar Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən daxili bazarda birgə reydlər də təşkil olunur. Məqsəd standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan elektrik və qaz cihazlarının istismarına yol verilməməsindən və satış dövriyyəsindən çıxarılmasının təmin edilməsindən, o cümlədən sahibkarlıq subyektlərinin hüquqi cəhətdən maarifləndirilməsindən ibarətdir. Bütün bunlar əhalinin təhlükəsizliyi, yanğın, partlayış, zəhərlənmə və ölüm hallarına aparıb çıxaran hadisələrin qarşısının əvvəlcədən alınması baxımından əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi bir daha diqqətə çatdırır ki, təhlükəsizliyin təmin edilməsi və istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə xaricdən gətirilən və milli sertifikatlaşmadan keçməyən elektrik və qaz cihazları muxtar respublikaya buraxılmır. Xaricdən bu tip cihazlar gətirilməsinə icazə üçün yeganə sənəd aidiyyəti dövlət orqanı tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatıdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*Yurdumuzun nemətləri*

# *Çaytikanı* vitaminlərlə zəngin, şəfalı bitkidir

***Qədim diyarımız Naxçıvan həm də müalicəvi bitkiləri ilə tanınır. Bu bitkilərdən xalq təbabətində geniş istifadə edilir. Çaytikanı da belə faydalı bitki növlərindəndir. Bu bitki haqqında oxucularımıza müfəssəl məlumat vermək üçün AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru, dosent Varis Quliyevlə həmsöhbət olduq.***



O bildirdi ki, çaytikanı iydəkimilər fəsiləsinə məxsusdur. Hündürlüyü 4-6 metrə çatan bu bitkinin gövdəsinin diametri 30 santimetrdir. Qaramtıl-boz rəngli budaqları üzərində tikanları vardır. Yarpaqları ardıcıl düzülüb, neştərşəkilli-dilimli, bütövkənarlı olub, üst hissəsi yaşıl, alt hissəsi isə gümüşü rəngdədir. Çoxalması toxum, kök pöhrələri və qələmlərlə olur. Fəsilənin təqribən 3 cinsinə daxil olan 55 növü vardır. Naxçıvan Muxtar Respublikasında təbii halda yalnız bir yabanı çaytikanı növü bitir. Bioresurslar İnstitutunun təcrübə sahəsində Abşeron rayonundan introduksiya edilmiş “Zəfərani” və “Şəfa” sortları becərilir.

Öyrəndik ki, çaytikanı aprel-may aylarında çiçəkləyir. Çiçəkləri xırda, ətirli və sarı olur. Meyvələri avqust-sentyabr aylarında yetişir, fevral-mart aylarına kimi kolun üstündə qala bilir. Meyvəsi şirəli, narıncı və qırmızı rəngdə olub, əsasən, girdə, oval və uzunsov formadadır. Dadı şirin, turş, turşməzə, ananas ətirlidir. Meyvəsinin tərkibində 3,5 faiz şəkər, 3,2 faiz üzvi turşu, 6 faizə qədər zülal, 9 faiz yağ vardır. Toxumunda olan yağın miqdarı 12,5 faizə çatır.

Çaytikanı həmərsin kimi vitamin mənbəyidir. Yetişmiş meyvəsinin 16 faizini toxum təşkil edir. Çaytikanı yağı özünəməxsus dad və iyə malik, açıq-narıncı rənglidir, A vitamini ilə zəngindir. Tərkibində yüksək miqdarda E və F vitaminləri də vardır ki, bu da dəridə maddələr mübadiləsini tənzimləyir.

Çaytikanından müalicəvi məqsədlə qədim zamanlardan istifadə edilir. Belə ki, Şərq xalq təbabətində çaytikanının meyvələri və yarpaqları mədə xəstəliklərinin müalicəsində, yel və dəri xəstəliklərində istifadə olunub. Qədim Yunanıstanda isə yarpaqlarının və budaqlarının həlimi ilə insanları müalicə ediblər, baytarlıq təbabətində də istifadə olunub.

Tibbi ədəbiyyatlarda onun meyvəsindən bir çox xəstəliklərin, o cümlədən göz, şəkərli diabet, qaraciyər, hipertoniya və qanazlığının müalicəsində geniş istifadə olunması barədə ətraflı məlumatlar verilir. Bitkinin yağı qəbul edilməklə həzm sisteminin selikli qişasının iltihabının, mədə və onikibarmaq bağırsağın xorasının müalicəsi aparılır. Mədə və onikibarmaq bağırsağın xorası gündə 3 dəfə, yeməkdən 30 dəqiqə əvvəl bir çay qaşığı qəbul etməklə müalicə oluna bilir. Yağı isti süd və ya çayla da qəbul etmək mümkündür. Cavan budaqlarının qabığı dəmləmə halında daxili şişlərə qarşı mübarizədə olduqca effektlidir. Dəmləmə iki xörək qaşığı qabığı 2-3 saat 0,5 litr qaynar suda saxlamaqla alınır ki, onu da gündə 3-5 dəfə isti halda yeməkdən əvvəl yarım stəkan içirlər. Dəmləməni bal ilə də içmək məqsədəuyğundur. Meyvələrində olan vitaminlər isə dəri xəstəliklərinin müalicəsində, avitaminozda son dərəcə faydalıdır. Çaytikanı meyvələrində olan vitaminlərin hər birinin mühüm müalicəvi əhəmiyyəti vardır. Yoluxucu xəstəliklərə qarşı müqaviməti artıran A vitamini, xüsusən uşaqlar üçün çox faydalıdır. O, gözün görmə qabiliyyətinə müsbət təsir göstərir. B1 vitamini sinir sisteminin möhkəmlənməsinə və iş qabiliyyətinin artmasına kömək edir. B2 vitamini diabet, qaraciyər xəstəliklərinin müalicəsində, eləcə də qanazlığında və antibiotik dərmanlarla uzunmüddətli müalicədən baş verən müxtəlif xəstəliklərdə müsbət təsirə malikdir. A və P vitaminləri birlikdə hipertoniya xəstəliyinin müalicəsi üçün əlverişli vasitədir. C vitamini orqanizmin normal inkişafını tənzimləyir, maddələr mübadiləsini yaxşılaşdırır, qan təzyiqini normallaşdırır, iltihabı aradan qaldırır. Ona görə də C vitamini bir sıra xəstəliklərdə (qanazlığında, sinqada, anginada, səpkili yatalaqda) geniş tətbiq olunur.

Onu da qeyd edək ki, çaytikanının meyvəsindən müalicəvi əhəmiyyəti olan müxtəlif şirə, kompot, mürəbbə, cem, jele, püre, marmelad, vitaminli çay və sair hazırlanır. Adıçəkilən təamları sadə yollarla da hazırlamaq olur.

Ev şəraitində meyvə şirəsindən yağ da əldə edilir. Varis Quliyevin dediyinə görə, çaytikanı həm də dekorativ bitki olduğundan ondan bəzək vasitəsi kimi istifadə etmək olar. O həmçinin torpaq bərkidəndir, atılan qrunt qarışığında torpağı azotla zənginləşdirərək münbitliyini artırır, rekultivasiya edir və orada yeni fitosenoz yaratmaqla torpağı əkinəyararlı hala gətirir. Çaytikanı bitkisinin mühüm bioloji xüsusiyyətlərindən biri də atmosferdəki molekulyar azotu mənimsəmək qabiliyyətidir.

*Təbiətin bizlərə bəxş etdiyi sağlam həyat mənbəyi olan belə bitkiləri qorumaq, artırmaq və onlardan səmərəli istifadə etmək hamımızın borcudur.*

**Nail ƏSGƏROV**

# Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti

## *miqrasiya orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə”yə və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş “Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə”yə uyğun olaraq miqrasiya orqanlarına işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 11 vakant vəzifə üzrə müsabiqə elan edir.

Miqrasiya orqanlarına işə qəbul olunmaq istəyən Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər *www.miqrasiya.nakhchivan.az* internet saytına daxil olmaqla “Miqrasiya orqanlarında xidmətə qəbul” bölməsində işə qəbulla bağlı müəyyən olunmuş elektron ərizə formasını doldurmalıdırlar. Elektron ərizə müsabiqədə iştirak üçün ilkin əsas sayılır. Elektron ərizə ilə müraciət edən şəxslər eyni zamanda Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin müsabiqə komissiyasına aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *ərizə (Dövlət Miqrasiya Xidməti tərəfindən təqdim ediləcək);*
- *Dövlət Miqrasiya Xidməti tərəfindən müəyyən edilmiş formada kadrlar uçotunun şəxsi vərəqi və tərcümeyi-hal;*
- *3x4 santimetr ölçüdə 2 ədəd (ağ fonda) fotoşəkil;*
- *ali təhsil barədə diplom (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanunamüvafiq qaydada nostrifikasiya olunmalıdır) - (notariat qaydasında təsdiq edilmiş formada);*
- *əmək kitabçasının notariat qaydasında təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə);*
- *şəxsiyyət vəsiqəsinin surəti (notariat qaydasında təsdiq edilmiş formada);*
- *hərbi biletin surəti (notariat qaydasında təsdiq edilmiş formada).*

Təqdim olunmuş sənədlər əsasında vətəndaşların müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır. Müsabiqəyə sənəd qəbulu 18 dekabr 2017-ci il tarixdən 18 yanvar 2018-ci il tarixədək aparılır.

Müsabiqədə iştirakla bağlı elektron ərizə qəbulu başa çatandan sonra qeydiyyatı təsdiqlənmiş şəxslərə imtahanın vaxtı ilə bağlı qeydiyyatdan keçdikləri elektron poçt ünvanı vasitəsilə məlumat veriləcəkdir.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə miqrasiya orqanlarında işləməyə qadir olmayan, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara görə bu orqanlardan xaric edilmiş şəxslər miqrasiya orqanlarına qulluğa qəbul edilə bilməzlər.

***İtmişdir***

Tağızadə Kənan Azər oğlunun adına Sumqayıt Dövlət Universiteti tərəfindən verilmiş A-040869 seriya nömrəli diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1020